**FOLKLORŞÜNASLIQ**

**UOT 78.07**
**https://doi.org/10.59849/2311-8482.2024.1.39**

**ŞÖHRƏT MƏMMƏDOVA***

# MÜASİR AZƏRBAYCAN UŞAQ DRAMATURGİYASINDA FOLKLOR

*Azərbaycan ədəbiyyatında uşaq dramaturgiyası XX əsrin əvvəllərində təşəkkül tapsa da 60-cı illərdən yeni inkişaf mərhələsinə qədəm qoymuçdur. Bu yol taparaq yeni nəslin mənəvi əxlaqi tərbiyəsində əsaslı rol oynamış, müasir gerçək həyatımızın real təsvirində şablonçuluğa və standartçılığa, digər digər mənfi hallara zaman keçdikcə az təsadüf olunmuşdur.Ədəbi tənqid bu illərdə daha fəal gürünən teatrların repertuarında uzunmüddətli yer tutan Azərbaycan uşaq dramaturgiyasının inkişaf mərhələsini yüksək qiymətləndirmiş, bu sahənin daha geniş vüsət almasının zəruriliyini vurğulamışdır. Bu illəri təhlilə cəlb etmiş tənqidçi alim , akademik Bəkir Nəbiyev yazır "son illərdə Azərbaycan uşaq dramaturgiyasının nəaliiyyətləri artmışdı.Bu illərdə qələmə alınmış uşaq pyesləri mövzu baxımından rəngarəngdir. Bu əsərlər folklor motivləri əsasında, bəziləri isə müasir həyatdan alınmış mövzular əsasında qələmə alınmışdır. Bu dramaturji əsərlər folklor motivləri əasaında qələmə alınmışdır. Bu dramaturji əsərlər öz təbiəti etibarilə yalnız söz sənəti deyil, həm də ayrı ayrı teatrlar üçün yazılır. Öz ideyasını, fikrini yürütmək və obrazlarını canlandırmaq üçün dramaurqa təkcə bədii söz vasitəsi kifayət etmir, həmçinin yaranmış dramaturji əsərlər teatr səhnələrinə aktyorların ifaları ilə həyata vəsiqə alır".*

*Azərbaycan uşaq dramaturqiyası nümunələri üçün ən xarakterik cəhətlərdən bri də bu sahənin müxtəlif mövzu və üsulla qələmə alınmasıdır. Zahid Xəlilin dramaturji yaradıcılığında bu səpkidə yazılmış üç əsər diqqəti cəlb edir. 70-80 ci illərdə qələmə alınmış bu uşaq pyesləri mövzu, bədi- estetik baxımdan müxtəlif təsir qüvvəsinə malikdirlər. Bu maraq doğuran əsərlərin ikisi- "Lampacıq" və "Küp"folklor motivləri əsasında, digər "Ana" ocağı isə müasir həyatdan götürülmüş mövzu əsasında qələmə alınmışdır.*

*Zahid Xəlilin dramaturji yaradıcılığındakı məzmun, hadisələrin inkişafına təkan verə biləcək qəhrəmanların monoloqları və ayrı-ayrı personajlar arasındakı dialoqlar, buradakı mükalimələrdə məharətlə verilmiş sətiraltı mənalar, gərgin keçən dramatik mübarizənin oyatdığı xarakterik vəziyyətlər, bunların tamaşaçılara (oxuculara) təsiri daha qabarıq görünür. Bu isə bütün janrlara nüfuz etmək bacarığına malik olan qələm sahibinin – Zahid Xəlilin fitri istedadından irəli gəlir.*

***Açar söz:*** *Uşaq, folklor, ədəbiyyat , pyes, dram, əsər, sənətkar, əxlaq, mövzu, rəngarəng*

## Giriş

Azərbaycan ədəbiyyatında uşaq dramaturgiyası XX əsrin əvvəllərində təşəkkül tapsa da 60-cı illərdən yeni inkişaf mərhələsinə qədəm qoymuçdur. Bu yol taparaq yeni nəslin mənəvi əxlaqi tərbiyəsində əsaslı rol oynamış, müasir gerçək həyatımızın real təsvirində şablonçuluğa və standartçılığa, digər digər mənfi hallara zaman keçdikcə az təsadüf olunmuşdur.Ədəbi tənqid bu illərdə daha fəal gürünən teatrların repertuarında uzunmüddətli yer tutan Azərbaycan uşaq dramaturgiyasının inkişaf mərhələsini yüksək qiymətləndirmiş, bu sahənin daha geniş vüsət almasının zəruriliyini vurğulamışdır.

## Əsas təhlil

Bu illəri təhlilə cəlb etmiş tənqidçi alim , akademik Bəkir Nəbiyev yazır "son illərdə Azərbaycan uşaq dramaturgiyasının nəaliiyyətləri artmışdı.Bu illərdə qələmə alınmış uşaq pyesləri mövzu baxımından rəngarəngdir. Bu əsərlər folklor motivləri əsasında, bəziləri isə müasir həyatdan alınmış mövzular əsasında qələmə alınmışdır. Bu dramaturji əsərlər folklor motivləri əasaında qələmə alınmışdır. Bu dramaturji əsərlər öz təbiəti etibarilə yalnız söz sənəti deyil, həm də ayrı ayrı teatrlar üçün yazılır. Öz ideyasını, fikrini yürütmək və obrazlarını canlandırmaq üçün dramaurqa təkcə bədii söz vasitəsi kifayət etmir, həmçinin yaranmış dramaturji əsərlər teatr səhnələrinə aktyorların ifaları ilə həyata vəsiqə alır". (12.124)

Lakin bəzən də elə olur ki hansı naməlum səbəblərdənsə həmin əsərlər səhnəyəyol tapa bilmir, balaca tamaşaçılarb bu pyeslərə səhnədə tamaşa etməkdən məhrum olur və əsərlər yalnız mütaliə materialına çevrilir. Zahid Xəlilin dramaturji əsərləri də məhz bu həyatı yaşamalı olmuşdur.

Əsas məzmun

Azərbaycan uşaq dramaturqiyası nümunələri üçün ən xarakterik cəhətlərdən bri də bu sahənin müxtəlif mövzu və üsulla qələmə alınmasıdır. Zahid Xəlilin dramaturji yaradıcılığında bu səpkidə yazılmış üç əsər diqqəti cəlb edir. 70-80 ci illərdə qələmə alınmış bu uşaq pyesləri mövzu, bədi-

estetik baxımdan müxtəlif təsir qüvvəsinə malikdirlər. Bu maraq doğuran əsərlərin ikisi- "Lampacıq" və "Küp"folklor motivləri əsasında, digər "Ana" ocağı isə müasir həyatdan götürülmüş mövzu əsasında qələmə alınmışdır.

Folklor motivli "Lampacıq" uşaq pyesi maraqlı süjetə malikdir. Müəllif özünün "Çıraq nənənin nağılları " nəsr əsərindən istifadə edərək orjinal bir səhnə əsəri ərsəyə gətirmişdir. Nəsr əsərindən fərqli olaraq sənətkar pyesi teatr səhnəsinə uyğunlaşdırdığı üçün əlavə obrazlar yaratmış, əhvalatları bir qədər dinamik təsvir etməyə çalışmışdır. Uşaqlar üçün daha maraqlı və cəlbedici görünən alleqorik üsulun klassik gücüünə yaxından bələd olan Zahid Xəlil, həmçinin, müxtılif nağıl motivlərindən məharətlə istifadə etmiş, "nağıllar kralı" Hans Xristian Andersenin üsulundan bəhrələnərək, uşaqları özünə cəlb edəcək mənalı səhnə əsəri yarada bilmişdir.

Bu əsərdə kiçik yaşlı tamaşaçılara orjinal təsir bağışlayan müxtəlif xarakterli obrazlar diqqəti cəlb edir. Ütü, fırça, Atəşböcəyi, Siçan bəy, Lampacıq, Çıraq nənə, Qırmızıgöz. Bu obrazlar öz fərdi xarakteri və psixologiyası, davranış tərzi baxımın dan bir-birindən köklü surətdə fərqlənirlər.

Pyesin başlanğıcında Ütü tamaşaçılara (oxuculara) başqa obrazları təqdim etməklə yanaşı, özünün də xarakterik xüsusiyyətini açır: «Gəlin tanışlığı elə mənim burnumdan başlayaq. Heç bilirsiniz mənim burnum niyə belə sivridir?.. Mənim bu qəşəng burnum ona görə sivridir ki, onu mən hara gəldi soxa bilirəm... Siz bilən, bəs mənim üzüm niyə sığallıdır? ...Mən eşitdiyim hər hansı bir sözü sığallayıb danışmasam bağrım çatlayar». (7. 216)

Ütü və Fırça meşşan həyat tərzi keçirən Lampacığın ev əşyalarına mənsubdular və elə buna görə də bu obrazlar bütövlükdə öz xarakterləri, hərəkət və davranışları, ədəb-ərkanları baxımından bir-birinə tamamilə uyğun gəlirlər. Fırça ərköyün Lampacığın dişlərini sürtür ki, par-par parıldasın. Ütü isə Lampacığın bər-bəzəkli paltarlarını səhərdən axşama kimi ütüləyir ki, onu bu qiyafədə görən hər bir kəsin ağlını başından çıxara bilsin.

Atəşböcəyi isə bu ədabaz, heç kimi bəyənməyən nazlı «gözəlçəni» yuxusunda görmüşdür: hardasa bir masanın üstündə qəşəng bir Lampacıq əyləşib və bu qız o qədər gözəldir ki, camalı işıq saçır. Atəşböcəyi qətiyyətlə qərara alır ki, hökmən bu qızı tapmalı, onunla yaxından dost olmalıdır. Lakin o, Lampacığı yaxından tanımadığı üçün onun xasiyyətinə bələd deyildir. Pyesin sonrakı gedişindən də məlum olur ki, onlar xarakter baxımından bir-biri ilə tərs mütənasibdirlər. Təkcə saçlarını qaydaya salmaq üçün saatlarla güzgünün qarşısından çəkilməyən, özünü Günəşin yeganə nəvəsi sayan Lampacıq öz meşşan davranışları ilə nə qədər ikrah hissi oyadırsa, bunun əksinə olaraq, Atəşböcəyi odlu, nurlu işığı ilə bütün qaranlıq zülmətləri yarmaq iqtidarına malikdir, həm də öz düşünülmüş mərdanə hərəkətləri ilə bitkin obraz təsiri bağışlayır. Çıraq nənənin dediyinə istinad etsək, o, əlləri qabarlı bir zəhmətkeşdir.

Lakin Atəşböcəyi Lampacıqla ilk dəfə görüşəndə və dost olmaq arzusunu ona bildirəndə, yüngül təbiətli qız bu yaxınlığı çoxlu miqdarda qızıl əşyalarına sahib olmaqda, şan-şöhrətdə, ibarəli nitq mədəniyyətinə sahib olmaqda görür və axırda: «Əgər mənə iyirmi qızıl sancaq və iyirmi qızıl düymə gətirsəniz, bu barədə düşünmək olar» (7.217 ) cavabını verir.

Bir ağbirçək kimi evin yuxarı başında özünə yer tutmuş Çıraq nənə həmişə sözün düzünü danışdığı üçün nurani sifəti daim işıq saçır. Müdrikliyindən istifadə edərək yanlış yola düşənlərə ağıllı məsləhət və düzgün istiqamət verir, heç vaxt onlardan öyüd-nəsihətini əsirgəmir.

Siçanların sərkərdəsi Uzunquyruq Siçan bəy isə öz kəsəyənlik vəzifəsinə sadiq qalsa da, olduqca qorxaq təbiətə malikdir, istədiyi yerə siçanlardan ibarət öz «qoşunu» ilə getməsinə baxmayaraq, azacıq sərt danışıq eşidən kimi aradan çıxmaq üçün ona bir işarə kifayətdir. Bu isə tamaşaçıda kinayəli gülüş doğurur. Bu əsərdən bir parçaya diqqət edək:

«(...səhnənin bir tərəfində Siçan bəy görünür. Onun yanında siçan əsgərlər dayanıb. Siçan əsgərlərin qədim əsgərləri xatırladan geyimləri və dəmir dəbilqələri var. Ütü onları görüb bərkdən qışqırır).

Ütü – Siz kimsiniz belə?

(Siçan bəy bir qədər qorxub geri çəkilir. Şlyapasını çıxarıb baş əyir. O biri siçanlar cüyüldəşirlər.)

Siçan bəy – Mən siçanlar sərkərdəsi Uzunquyruq Siçan bəyəm.

Ütü – (uğunub gedir) Bircə siz çatmırsınız. Lampacığın o qədər vaxtı hardaydı ki, sizin bu qılquyruq qoşununuzla dostluq edəydi. Yaxşısı budur, cəhənnəm olun!

Siçan bəy – (qoşununa tərəf çevrilir) Cəhənnəm olmağa hazırlaş. (Siçanlar əsgəri qayda ilə düzülürlər). Cəhənnəm olmağa başla! Bir, iki, bir, iki. (Gəldikləri kimi də gedirlər)».(7.216)

Müxtəlif xarakter və psixologiyaya malik olan bu orijinal alleqorik obrazlar həm də bir-biri

ilə yaratdığı bu və ya digər fərdi münasibətlərilə, bəzən də etdikləri müxtəlif məzmunlu söhbətlərlə uşaqları dərindən düşündürür, əsasən dostluqda dəyanət, məhəbbətdə sədaqət duyğuları ön plana çəkilir. Uşaqlarda həyatda hər şeyin insanı parıltısı ilə tora salan qızılın dəyəri ilə ölçülmədiyi qənaətini yaradan dramaturq insan tamahkarlığının və var-dövlətə hədsiz hərisliyin nə vaxtsa faciəvi sonluqla başa çatacağını, həyatın məhvə doğru gedəcəyini onlara inandırmağa çalışır və əsasən buna nail olur.

Pyesin ikinci pərdəsində qızıl əşyalardan ötrü əldən gedən Lampacığın verdiyi tapşırığa əməl etmək üçün tilsimli məkana ayaq basan Atəşböcəyi ilə Qarı arasında gedən dialoq maraq doğurur:

«Atəşböcəyi – Köpək qarı, yaxşısı budur ki, ocağı söndürəsən. Sənin o ocağının içində bu saat əriməyə hazır olan sancaq və düymələri aparmalıyam. Öz razılığınla olsa sənə ancaq təşəkkür edərik. Amma verməsən, zorla aparacağıq.

Qarı – (bərkdən gülür) İştahın çox itidir, oğlan. Məgər sən bilmirsən ki, həmin qızılları ancaq ocağın içindən çıxara bilərsən? Əgər çıxara bilsən, buyur apar, halal xoşun olsun. Çıxara bilməsən, öz bəxtindən küs!

Atəşböcəyi – Heç kəsdən küsməyə vaxtım yoxdur. Günəşin yeganə nəvəsi Lampacıq bu saat həmin qızılların həsrəti ilə göz yaşı tökür. Əgər bu sancaq və düymələri apar- sam, o mənim nişanlım ola bilər.

Qarı – Burda səhv edirsən, oğlan. Həmin o Lampacıq çoxlarına belə tapşırıq verib, üstümə göndərib. İndi onların ancaq külü qalıb. Sənsə yaxşısı budur nə qədər ki, gec deyil, çıx get gəldiyin yerə. Mənim qızıllarım ocaqda yandıqca bundan ləzzət alıram.

Atəşböcəyi – Eybi yoxdur, qoy mən Lampacığın yolunda həlak olum. Ancaq o qızılları çıxarıb aparmalıyam.

Qarı – Əgər yansan mən taqsırkar deyiləm. Yox əgər qızılları çıxara bilsən, əlindən almayacağam. Oldu?

Atəşböcəyi – Əlbəttə, oldu. Bundan yaxşı nə ola bilər? (Atəşböcəyi əlini ocağın içinə uzadıb qızılları çıxardır.) Qarı – Qəribə işdir. Bəs, ocaq səni niyə yandırmır?

Atəşböcəyi – Axı, mən Atəşböcəyiyəm. Deməli, elə özüm də qığılcım kimi bir şeyəm. Məni ocaq yandıra bilməz.

Qarı – Eybi yoxdur, apar o qızılları! Amma Lampacığa de ki, bu qızıllar heç kimə xeyir gətirməyib. O da nahaq yerə qızılla bəzənmək fikrinə düşüb».()

Qarının Atəşböcəyinə son məqamda dediyi bu sözlər uşaq və gənclər üçün bir nəsihət rolunu oynayır. Doğrudan da, pyesin sonunda qızılların hamısı siçanlara qismət olur və Lampacıq özü də bu kiçik həcmli dəyərli metalın qurbanına çevrilir.

Müəllif özünü süni şəkildə mədəni göstərən, vəzifəsindən ötrü hər bir rəzilliyə hazır olan qarınqulu xislətli, danışığında amiranəlik nitqini qoruyub saxlamaqla başqalarını qorxutmaq, bununla özünü daha yüksək mərtəbələrdə görmək istəyən Qırmızıgözün yağlı dilinə aldanan meşşan təbiətli Lampacığın faciəsini verməklə, müasir uşaq və gəncləri bu naqis yola ayaq basmamağa çağırır. Bu qüsurlu tərbiyənin insani keyfiyyətlərin aşılanmasına əngəl törədən ziyanlı tərəfini qabarıq təsvir edir, insan idrakının gücünü, bu gücdən istifadə yolu ilə zəhmətə qatlaşaraq yaşamağı, ən başlıcası, mövcud cəmiyyətdə özlərinə layiqli yer tutmağın əhəmiyyətini daha çox önə çəkir. Zahid Xəlil bu əsərdə ictimai tənqidi alleqorik obrazların dilində, ayrı-ayrı işarələr və eyhamlar şəklində versə də, hər bir tamaşaçı (oxucu) öz payını götürür. Müəllif pyesi tərbiyəvi sonluqla, Çıraq nənənin hamıya örnək ola biləcək ibrətamiz sözləri ilə bitirir: «Lampacıq yanır, amma o, lampa ola bilmədi. Lampa olmaq üçün gərək insanlarla həqiqi dost olasan».

Müəllif Çıraq nənənin dili ilə uşaqların həyatında tərbiyəvi əhəmiyyət daşıyan ibrətamiz ifadələrdən geniş istifadə edir: «Başqasının qüsurunu görmək azdı, adam gərək öz qüsurunu görsün», «Qızıllar heç kimə xeyir gətirməyib» və sair.

Müəllif «Küp» adlı uşaq pyesini müxtəlif folklor janrlarının uyarlı sintezindən məharətlə istifadə edərək, tamaşaçının (oxucunun) mənəvi-əxlaqi tərbiyəsinə müsbət təsir göstərən maraqlı bir dramaturji əsər qələmə almışdır.

Pyesin başlanğıcında dramaturq ədəbi priyomdan istifadə edərək, cərəyan edəcək hadisələri səhnəyə gətirmək üçün müasir həyatla nağıllar aləmini bir zaman kəsiyində sintezləşdirir. Küpü aşkar edənlər müasir dövrün ayıq-sayıq uşaqlarıdır və onlar belə bir mülahizə irəli sürürlər ki, bu küp nağıllardan gəlibdir və onu bura uçan boşqablar keçmişdən gətiriblər. Pyesdə iştirak edən digər obrazlar küpdən çıxmış nağıl qəhrəmanlarıdır: Qarı nənə, Bala Nəzər, Keçəl, Qurban dədə, Quldurbaşı, quldur Ələmdar, Çoban və başqaları.

Nağıllarda olduğu kimi, Bala Nəzərin gücü yalnız xırdaca milçəklərə çatır, bir yumruğu ilə qırxını birdən əzir. Quldurlarla qarşılaşanda qorxusundan canını qoymağa yer axtarır. Keçəl (Vüqar) isə onun əksidir: olduqca ağıllı və tədbirlidir, düşdüyü çətin və mürəkkəb vəziyyətlərdən ağılla çıxmağı bacarır, özünü, hətta başqalarını da qarşılaşdıqları təhlükələrdən xilas edir. Ağlının gücü ilə Çobanı və quldur Ələmdarı aldadaraq onların camaatdan qol gücünə aldıqları qoyunları geri qaytarır. Quldurbaşı qəzəblə qoyunların harda olduğunu ondan soruşanda Keçəl (Vüqar) özünün ağıllı və inandırıcı cavabı ilə onu da aldada bilir.

Pyesdə cərəyan edən cəlbedici hadisə və əhvalatların bədii təsvirində gülüş doğuran yumor olduqca güclü nəzərə çarpır. Bəzi hallarda bir sıra obrazların təqdimində isə bu yumor öz yerini kəskin sarkazma verir. Keçəllə Çobanın dialo- qunda bu halları (yumor və sarkazmı) görmək üçün aşağıdakı parçaya diqqət edək:

«...Keçəl – Yox canım, sən yaxşı adamsan. Amma bircə nöqsanın var.

Çoban – Nöqsan nədi, ə?

Keçən – Yəni sənin çatışmayan bircə şeyin var. Çoban – Nəyim çatışmır mənim, a bala?

Keçəl – Bax, götürək sənin bığını. Bu nə bığdı saxlayırsan. Xalxın bığına baxanda adamın bağrı yarılır. Am- ma səninki belə çox seyrəkdi eee!

Çoban – Naqayrım, belə olub dana.

Keçəl – Yox, əşi. Ona əncam çəkmək asandı. Çoban – Doğrudan? Di bir əncam çək dana.

Keçəl – Təzə quzu dərisi varındımı?

Çoban – Var! Elə qabağınızca quzu kəsmişdim. Dərisini hələ atmamışam.

Keçəl – Bu yaxşı oldu. Dərini gətir bura...»

Keçəl yaş dərini alıb çobanın başına keçirir, boğazından da bərk-bərk bağlayır və tapşırır ki, kim yaxınlaşsa bərkdən de:

«Kişşş, o yana get, əyri bitər».(7. 168)

Təbii ki, avam, olduqca sadəlövh, quldur dəstəsinə sədaqətlə qulluq göstərən çobanın düşdüyü bu acınacaqlı vəziyyət gülüş doğurmaya bilməz. Bununla yanaşı, o, həm də ifşa hədəfinə çevrilir. Onun fəxrlə dediyi sözlər bu gülüşü daha da qüvvətləndirir və güclü sarkazma çevirir: «Elə ki, bığlarım uzandı, sarıyacam qulağımın dibinə. Çomağımı da əlimdə qılınc kimi tutacam. Uzaqdan baxan da elə biləcək bəs Koroğluyam, dağın başında dayanıb seyr edirəm. Daha deməyəcəklər çobanam, qoyun otarıram...» (7.175)

Pyesdə bu səpgidə – ağıl sarıdan qüsurlu təsvir olunan digər obrazlara da rast gəlirik. Buna misal olaraq, tamaşaçıda (oxucuda) daha çox gülüş doğuran Şah obrazını göstərmək olar. Analoqu olmayan, olduqca ədalətsiz qərarlar çıxaran, əmrlər verən, ağıl sarıdan korluq çəkən, asan bir məsələni həll etmək istəyəndə çətin vəziyyətlərə düşən, son qərar çıxarmağa gələndə hamıya möhtac olan ağılsız şah ironik tərzdə təqdim olunur, onun çıxardığı kələkötür hökmlər tamaşaçıda kinayəli gülüş doğurur. Pyesdən bir hissəyə diqqət yetirək:

«Şah – Şikayətçi, buyur görək narazılığın nədəndir?

Quldurbaşı – Şah sağ olsun, əvvəlcə mənim sənə bir sualım var. Deyin görək, ölkə oğru-quldursuz ola bilərmi?

Şah – Bu nə səfeh sualdı belə? Oğru-quldursuz da ölkə olar? Onda həmin ölkəni dağıtmaq lazımdı.

Quldurbaşı – Atan oldu rəhmətlik. Mən məşhur Ələmdarın quldurbaşısıyam. Eşitdim ki, sizin ölkədə oğurluq olmur, fikirləşdim ki, kömək əlimi uzadım. Yəqin indi camaat oğrusuz darıxıb. Gəldim, bax, bu kişinin evini oğurlamağa. Hasardan aşıram, baxıram nə, ev ikimərtəbəli, hər mərtəbəsi də Bisütun dağı boyda. Neyniyim, əlacım kəsildi, dırmaşdım ikinci mərtəbəyə. Evin qiymətli əşyalarını yığışdırdım, elə çıxmağa hazırlaşırdım ki, ev sahibi yuxudan ayıldı, əlacım kəsildi, pəncərədən tullandım. Yıxıldım, ayağım sındı. Gəlmişəm şikayətə. Əgər ev hündür olmasaydı, mən də yıxılanda ayaqlarım sınmazdı.

Şah – Ev sahibini çəkin ortalığa. (Ev sahibini gətirirlər.) Kişi, sən məgər bilmirsən ki, adam gərək evini alçaq tikdirə? Ölkədə oğru da ola bilər, quldur da. Bəs sən demirsən birdən evimə oğru girər, mən də yuxudan ayılıb onu qorxudaram, oğru pəncərədən tullanar, ayağı sınar? Bu boyda yekəlmisən, onu da bilmirsən?» (7.176)

Müasir dövrümüzə qədər də bir sıra nağıllarımızda və klassik ədəbiyyatımızda ağılsız hökmdar surətləri yaradılmışdır. Məsələn, şikayətlərə ötəri qulaq asaraq ədalətsiz, gülüş doğuran qərarlar çıxaran Xan surətinə dramaturq Mirzə Fətəli Axundzadənin «Sərgüzəşti-vəziri-xani-Lənkəran»

komediyasında da rast gəlirik.

Lakin «Küp» pyesində Zahid Xəlil təsvir etdiyi hadisələri tamamilə başqa məcraya yönəldir. Pyesdə «ardıcıllıqla günahkar sayılan» beş adamın mühakiməsindən sonra sonuncu adam – zərgər haqqında çıxarılan edam hökmünün yerinə yetirilməsi zamanı onun boğazının yoğun olmasını səbəb gətirən, Keçəlin sözünə qulaq asmayıb, ayranla balın qiyməti eyni olan vilayətə gəlmələrinə səbəbkar olan Bala Nəzərin edamı haqda şahın çıxardığı qərar daha orijinal təsir bağışlayır. Dramaturq cərəyan edən hadisələrin axarını dəyişir, pyesdə ardıcıllığı gözləmək şərti ilə buraya yeni-yeni maraqlı əhvalatlar əlavə edir. Məsələn, ağıl sarıdan korluq çəkən şah «bir yumruğa qırxını əzməklə igidlik göstərmiş» Bala Nəzərin bu «qəhrəmanlığına» görə öz qızını ona vermək qərarına gəlir.

Yaxud, qonşu ölkənin hökmdarı Şakir şahın elçiləri şahın adından müxtəlif səviyyəli tapmacalar gətirirlər və axmaq şahdan tələb edirlər ki, əgər bunların cavabları tapılmasa onlarla müharibə etməli olacaqlar. Axmaq şah və onun ağılsız əyanları, beyinsiz, lakin qızıldan ötrü hər bir cinayətə hazır olan Quldurbaşı və quldur Ələmdar bu tapmacaların həlli qarşısında aciz qalırlar. Lakin Qurban dədə, Keçəl və Bala Nəzər bu tapmacaların cavabını taparaq ölkəni müharibə təhlükəsindən xilas edirlər.

Lakin pyesdə verilmiş şah surətlərinin hamısı axmaq, ağılsız qismində təsvir edilmir. Doğrudur, adı çəkilən Şakir şah səhnədə görünməsə də, elçilərin gətirdikləri tapmaca xarakterli suallar onun təfəkkürünün məhsulu qənaətini doğurur. Həmçinin, Şakir şah verdiyi tapmacaların düzgün cavabını verən müdrik ağıl sahiblərini öz sarayına toplamaq arzusundadır: «Şah tapşırdı ki, bu tapmacaların cavabını tapanları sarayda böyük vəzifə gözləyir». Tapmacaların cavablarını tapan Keçəlin sözləri Şakir şahın ağıllı olduğunu bir daha təsdiq edir: «Şakir şaha deyin ki, çox sağ olsun. Vətənimdə yediyim yavan çörəyi, qürbətin plovu ilə dəyişmərəm. Amma Şakir şahı ürəkdən sevdiyimi ona çatdırın. Ağıla-kamala qiymət verən adamın, deməli özü də ağıllı və kamallıdır».

Əsərdə müsbət obraz kimi səciyyələnən idrak sahibləri ilə ifşa hədəfi kimi təsvir olunan axmaq ünsürlər arasında gedən əsl ağıl mübarizəsi daha qabarıq nəzərə çarpır. Bu ağıllı, tədbirli adamlar isə axmaq, başıboş saray əyanları qarşısında sipər olduqlarına və ağıl sarıdan onlardan qat-qat üstün göründüklərinə görə zindana atılmaq təhlükəsi ilə üzləşirlər. Şahın əlaltıları Ələmdar və onun quldurbaşısı isə xalqın bütün var-yoxunu əlindən alıb qızıla çevirir və küpə doldururlar. Şahın ağılsızlığından istifadə edən bu cani ünsürlər qızılla dolu küpü ələ keçirmək, aradan çıxarmaq istəyirlər. Lakin elin ağsaqqalı Qurban dədənin, həmçinin, Bala Nəzər və Vüqarın ağlı və fərasəti nəticəsində zəhmətkeş xalqın uzun illər qazandığı varidatla doldurulmuş küp xalqa qənim kəsilmiş düşmənlərin əlindən alınır, yenidən ona qaytarılır. Burada xeyirxah Qurban dədə xeyirxah əməllərinə görə eyni ilə Dədə Qorqudu xatırladır.

Qurban dədə bu sehrli küpün içində xalq hikmətini düzəltdiyini deyir: «Buraya vətən torpağında bitən bütün otların, çiçəklərin şirəsini qatmışam. Burada hər budaqdan bir qətrə, hər arının balından bir qram, hər ananın südündən bir damla qatılıb. Buna görə də, onun adına «xalq hikməti» deyirlər. Bunu yeyən adamın damarlarından xalq qeyrəti axacaq, qollarının gücü birəmin artacaq, onun başından qorxu hissi yox olacaq».

El ağsaqqalı Qurban dədənin aqilanə hazırladığı bu xalq hikmətlərindən qidalanan Keçəl, Bala Nəzər axmaq şahın naqis adamlarına – quldur Ələmdara və quldurbaşına qalib gəlirlər.

Xüsusi qeyd etmək lazımdır ki, uşaq və gənclərin mənəvi-əxlaqi tərbiyəsinin formalaşmasında əhəmiyyətli yer tutan bu pyesin indiyə qədər respublikamızda fəaliyyət göstərən teatrların repertuarlarında yer almaması yalnız və yalnız təəssüf doğurur.

Nəticə

Ümumiyyətlə götürsək, Zahid Xəlilin dramaturji yaradıcılığındakı məzmun, hadisələrin inkişafına təkan verə biləcək qəhrəmanların monoloqları və ayrı-ayrı personajlar arasındakı dialoqlar, buradakı mükalimələrdə məharətlə verilmiş sətiraltı mənalar, gərgin keçən dramatik mübarizənin oyatdığı xarakterik vəziyyətlər, bunların tamaşaçılara (oxuculara) təsiri daha qabarıq görünür. Bu isə bütün janrlara nüfuz etmək bacarığına malik olan qələm sahibinin – Zahid Xəlilin fitri istedadından irəli gəlir.

**ƏDƏBİYYAT**

1. Elçin. Azərbaycan uşaq ədəbiyyatı haqqında düşüncələr. //Ulduz, 1982 N 4, s.47.
2. Əbilov İ. Uşaqlar üçün böyük ədəbiyyat yaradaq.//Azərbaycan, 1970 N 3, s.190-194.
3. Əhmədov C. Uşaq və zaman. Bakı:Yazıçı, 1986.
4. Əhməd V. Azərbaycan uşaq ədəbiyyatı. Bakı:Müəllim, 2006.

5. Əsgərli F.Sehirli dünyanın memarı Bakı:ADPU, 2012.
6. Xəlil Z., Əsgərli F. Azərbaycan uşaq ədəbiyyatı. Bakı:ADPU, 2004.
7. Xəlil Z Seçilmiş əsərləri. Bakı:ADPU,2009
8. Məmmədov M., Babayev Y., Cavadov T. Pedaqoji mühit və uşaq ədəbiyyatı. Bakı: Maarif, 1992.
9. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: BDU-nun nəşri, 2007.
10. Nəbiyev B. Uşaq ədəbiyyatını böyük tələblər səviyyəsinə qaldırmalı . "Azərbaycan" jurnalı, 1976 N 8.
12 Nəbiyev B. Söz ürəkdən gələndə. Bakı. 1984. S 189
11. Orucəliyev İ. Uşaq ədəbiyyatı nümunələrinin təhlili və tədrisi xüsusiyyətləri. Bakı:Müəllim,
12. Vurğun S. Balalarımız üçün gözəl əsərlər yaradaq. "Böyük sənət uğrunda" kitabında. Bakı, 1970.

***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının müdiri, dos.***
***e-mail:sohret.nesirova@mail.ru***

**Shohret Mammadova**

## FOLKORE IN MODERN AZERBAIJANI CHILDEREN'S DRAMATURGY

Developmen of children's dramaturgy in Azerbaijani literature at the beginning of the 20th century even it is found, its diffucut to reah a new stage of development since the 1960s.Having found this way, it played an important role in the spiriual and moral education of the new generation, and in real life of negative situation such as sterotypes and standarts.Literary criticism has highly valued the stage of deveopment of Azerbaijani cgildren's dramq, whic has a long-term place in repertuire of theaters that have become more active in recent years and it has further expanded this feild.Critial scientist,academician Bakir Nabiyev has drown these years to analysis''in recent years, the achivments of Azerbaijani children's dramaturgy have incresed.

The children's plays written in these years are colorful in terms of subject matter.These works are based on folklore motifs,and some of thm are based on themes taken from modern life.By thei nature, these dramaturgical works are not only the art of words,bu are also written for individual theatres.To carry out one's own ideas and opinions and to bring images to life for playwright only the medium of words is not enough,as well as dramaturg works come to life on theater stages with actors performances.

It is one of the characteristic aspects of Azerbaijani children's dramaturgy is also a scholor of thi field with various topics and methods .In Zahid Khalil's dramaturgy three body of works in this form is interesting.Written 70s and 80s children's plays has different effect fromm the subject, artistic and aesthetic point of view.Two of these body of works''Lampaciq'' and''Kup'' were written based on folklore motifs,and he other ‘'mother'' was written based on a theme taken from modern life.

The contest of Zahid Khalil's dramaturgical work is based on the development of events, monologues of the heroes and the dialogues between different haracters , the subtexts skillfully given in the dialogues, the charactrustic situations evoked by the tense dramatic struggle has a big impact on the audience [readers].This is due to the innate talent of Zahid Khalil, who has the ability to penetrate all genres.

**Keywords:** *folklore,literature, play,drama,work, artit, exlag,theme, color*

**Шохрат Мамедова**

## ФОЛЬКЛОР В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ДЕТСКОЙ ДРАМАТУРГИИ

Хотя детская драматургия в азербайджанской литературе сформировалась в начале 20 века, с 60-х годов она вступила в новый этап развития. Найдя этот путь, оно сыграло основополагающую роль в духовно-нравственном воспитании нового поколения, а в реалистическом изображении нашей современной реальной жизни шаблонизм и стандартизм и другие негативные ситуации, редко встречающиеся в литературной критике. высоко оценил этап развития азербайджанской детской драмы, которая в эти годы занимает прочное место в репертуаре наиболее активных театров, подчеркнул необходимость расширения этой сферы. Академик и критик Бекир Набиев, занимавшийся анализом этих лет, пишет, что "в последние годы возросли достижения азербайджанской детской драматургии".

Написанные в эти годы детские пьесы красочны по тематике. Эти произведения написаны на основе фольклорных мотивов, а некоторые из них основаны на темах, взятых из современной жизни. Эти драматические произведения написаны на основе фольклорных мотивов. Эти драматургические произведения по своей природе не только искусство слова, но и написаны для отдельных театров. Для осуществления своих идей и мыслей, воплощения в жизнь своих персонажей драматург не только располагает средствами художественного слова, но и созданные драматургические произведения воплощаются в жизнь игрой актеров на театральной сцене.

Однако иногда случается, что по неизвестным причинам эти произведения не попадают на сцену, небольшая публика лишается возможности смотреть эти пьесы на сцене, и произведения становятся лишь материалом для чтения. Драматургические произведения Захида Халила тоже должны были прожить эту жизнь.

Одним из наиболее характерных аспектов образцов азербайджанской детской драматургии является написание этой области разными темами и методами. В драматургическом творчестве Захида Халила обращают на себя внимание три произведения, написанные в этом стиле. Эти детские пьесы, написанные в 70-е и 80-е годы, имеют разное сюжетно-художественное и эстетическое воздействие. Два из этих интересных произведений – «Лампачик» и «Куп» написаны на основе фольклорных мотивов, а другое «Ана» Очаг написано на основе темы, взятой из современной жизни.

Содержание драматургического произведения Захида Халила, монологи героев и диалоги между отдельными персонажами, способные стимулировать развитие событий, подтекстовые смыслы, умело переданные в диалогах, характерные ситуации, вызванные напряженной драматической борьбой, и их влияние на аудиторию (читатели) более заметна. Это связано с врожденным талантом Захида Халила, обладающего способностью проникать во все жанры.

**Ключевые слова:** *Ребенок, фольклор, литература, пьеса, драма, произведение, художник, мораль, предмет, красочный*

*Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 18.01.2024**
**Son daxilolma tarixi:02.03.2024**